HEINRICH BÖLL STIFTUNG
TBILISI
South Caucasus Region

# TƏBLİĞAT ALƏTİ: MÜSTƏQİL AZƏRBAYCANDA YADDAŞ SİYASƏTİNİN 30 İLİ

**Sevil Hüseynova**



# TƏBLİĞAT ALƏTİ:
# MÜSTƏQİL AZƏRBAYCANDA YADDAŞ SİYASƏTİNİN 30 İLİ

**SEVIL HÜSEYNOVA**

Məqalənin məzmununa görə yalnız müəllif məsuliyyət daşıyır və burada ifadə edilən fikirlər heç bir şəkildə Heinrich Böll Fondu Cənubi Qafqaz Regionu - Tbilisi Ofisinin görüşləri kimi təqdim edilə bilməz

Ilk səhifədəki şəkil: Şəhidlər Xiyabanı, Bakı, 2015, Foto: Sevil Hüseynova

HEINRICH BÖLL STIFTUNG
TBILISI
South Caucasus Region

2022

# İÇİNDƏKİLƏR


GİRİŞ 4

1990-2020: ƏSAS HADİSƏLƏR VƏ GÖRÜNTÜLƏR 5

MÜSƏLMAN ŞƏRQİNDƏ İLK RESPUBLİKANIN XATIRLANMASI 6

1918-Cİ İLİN MART GENOSİDİ VƏ 1990-CI İLİN QANLI YANVARI 8

UZUN MÜDDƏTLİ MÜNAQİŞƏ YADDAŞLARDA: İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN ƏVVƏL VƏ SONRA 10

BÖYÜK LİDERİN ÜZƏ ÇIXMASI 12

KEÇMİŞİN GƏLƏCƏK PERSPEKTİVLƏRİ 13

ƏDƏBİYYAT 14

# GİRİŞ

Uzun illər “sovet monumental heykəltəraşlığının əməkdar ustası” titulunu daşımış Dmitri Merkurov Stalin vəfat edən il nəşr olunmuş “Həykəltəraşın qeydləri” kitabında yazırdı: “Heykəllər təbliğat və xalqın ideoloji hazırlığı üçün güclü vasitədir. Bizim dövlətdə isə onun əhəmiyyəti xüsusilə böyükdür.” (Merkurov 1953: 50). Doğrudur, Merkurov bu sözləri Sovet İttifaqı haqqında yazıb, amma bu fikri müasir Azərbaycana da aid etmək olar. Neft və qaz satışından əldə edilən gəlir təkcə iri infrastruktur layihələrinin tikintisinə və barpasına, nəhəng bürokratik aparatın, polisin və ordunun saxlanmasına xərclənmirdi. Bu gəlirlər həm də ölkə boyu çox sayda heykəllərin quraşdırılmasına yönəldilirdi. Qurulandan daha çox heykəlin söküldüyü 1990-cı illərin əvvlindənki qısa zaman kəsiyindən sonra 2000-ci illərdə ölkədə heykəllərin və xatirə komplekslərinin salınmasının yeni dalğası başlandı. Bu proses ictimai məkanların milli kimliyə uyğunlaşdırılması və Əliyev siyasi rejiminin legitimləşdirilməsi şəraitində baş verirdi. Nəticədə bir çox ictimai və siyasi mövzulu heykəllər yenidən “təbliğat alətinə” və hakimiyyətin vizual simvoluna çevrildi. (Michalski 1998: 107).

# 1990-2020: ƏSAS HADİSƏLƏR VƏ GÖRÜNTÜLƏR

Müstəqil Azərbaycanın yaddaş siyasətinin əsas iki hadisə üzərində qurulub: Dağlıq Qarabağ münaqişəsi və 1993-cü ildə Əliyevin irsi hakimiyyətinin qurulması. (Waal 2003; Ottaway 2003; Rumyantsev 2017). Sərt avtoritar rejimin keçmişi müəyyən etmək iqtidarında olan yeganə siyasi güc olmaq iddiası, bütün ictimai məkanlara tam nəzarət etməsi və rəqiblərini marjinallaşdırması ölkədə yaddaş siyasətini səciyyələndirən əsas xüsusiyyətlərdir.

Aleida Assmanın uğurlu bir bənzətməsi var: “keçmişin uzun kölgəsi”. Bu bənzətmə “gələcək nəsillərin keçmişin travmalarından azad olmaması və bununla bacara bilməməsini” nəzərdə tutur (Assman 2006: 16). 1918-1920-ci illərin xatırlanması, Rusiya imperiyasının dağılması ərəfəsindəki hadisələr, ilk Azərbaycan Demokratik Respublikasının (ADR) yaradılması səyləri (Swietochowski 1985) hakim rejim üçün heç də həmişə rahat bir keçmiş olmayıb. Dağlıq Qarabağda 1992-1994-cü illərdəki müharibənin travmaları və davam edən münaqişə də həmişə rahat idarə olunmur.

*Ssiyasi ictimai heykəllərin istehsalı sənayesini* və hakimiyyətin himayəsi və nəzarəti altında kollektiv kütləvi mərasimlərin və ritualların təşkilini Mixalski yəqin ki keçmişin öhdəsindən gəlməyin əsas strategiyalarına aid edərdi. Cavab axtarılası sualları Aleida Assmanda təbirincə ifadə etmək olar: “kimlər mədəni yaddaşdan kənar qalır? Mədəni yaddaşa aid etmə və xaric etmənin prinsipləri nədir? Bu suallar hakimiyyətin əldə edilməsi və qorunması məsələləri ilə bilavasitə bağlıdır, yəni güc münasibətlərində hər hansı dəyişiklik mədəni yaddaşın strukturunda da dəyişikliklərə səbəb olacaq.” (Assman 2009: 35).

# MÜSƏLMAN ŞƏRQİNDƏ İLK RESPUBLİKANIN XATIRLANMASI

20-ci əsrin əvvəlindəki siyasi fiqurlar – Azərbaycan Demokratik Respublikasının (ADR) "qurucu ataları" Heydər Əliyev kultu ilə rəqabətdə gözdən itdilər. Rəsmi hekayəyə görə müstəqil dövlətçiliyin əsas yaradıcısı rolu ata Əliyevə məxsusdur və onun üçün çoxsaylı heykəllər quraşdırılmışdır. SSRİ-nın digər milli respublikalarında olduğu kimi Azərbaycanda da 1980-ci illərdə tarixi hekayələrin yenidən yazılarkən bu siyasi figurlar yeni məna kəsb etməyə başlamışdı. Xalq Cəbhəsindən olan millətçilər Əbülfəz Elçibəyin qısa prezidentliyi (1992-1993) dövründə hakimiyyətə gəldikdə "birinci respublikanın" siyasi fiqurları əsl nümunəvi vətənpərvərlik mücəssiməsi kimi tarix dərsliklərinə daxil edildilər.[1] Əsas rol isə "qurucu ataların" yaratdığı ən nüfuzlu partiya olan Müsavatın (bərabərlik) lideri Məmməd Əmin Rəsulzadəyə nəsib olmuşdu (onun tərcümeyi-halı haqqında daha ətraflı məlumat üçün bax: Balayev, 2018).

İsa Qəmbərin rəhbərliyi ilə Xalq cəbhəsinin bir qrup fəalı 1992-ci ildə Müsavat partiyası yaradaraq bu hadisəni uzun illər mövcud olmamış bir partiyanının "bərpası" olduğunu elan etdilər. Yeni yaranmış bu Müsavat partiyası 2011-ci ildə 100 illik yubileyini qeyd etdi. Hakimiyyət əlindən gələni etdi ki, əhalinin böyük əksəriyyəti bu yubileydən xəbər tutmasın. Hətta Azərbaycanın müstəqilliyi belə "bərpa olunmuş" kimi təfsir olunur və Xalq cəbhəsi və Müsavatın liderləri legitimlik qazanmaq üçün özlərini ADR-in rəmzi davamçısı kimi təqdim edirdilər. Dövlətçiliyin əsas rəmzləri olan bayraq, gerb və himn həmin respublikadan götürülmüşdü. 28 may 1918-ci ilin müstəqillik günü rəsmi bayram elan olunaraq Respublika günü adlandırılmağa başladı. O dövrdən başlayaraq bütün mühüm dövlət institutlarının şəcərəsi ADR dövrü ilə bağlanmağa başladı (parlament, prokuroluq, ordu, ilk universitet və s.) Keçmiş haqqında hakim diksursa görə ADR bütün müsəlman şərqində ilk respublika kimi təqdim olunmalı, qurucu ataların "demokratiya, insan hüquqları, qanun qarşısında bərabərlik, seçki hüququ və cinslər arası bərabərlik və bu kimi bir çox ideyalarının xələflərinə ötürdüyü" bildirilməli idi (Müxalifət Respublika gününü qeyd etdi, 2017).

Müstəqilliyin ilk illərində ölkənin paytaxtındakı ən mühüm ali təhsil müəssisəsi Məmməd Əmin Rəsulzadənin adını daşıyırdı. Onun doğulduğu Novxanı kəndində 1993-cü ildə ucaldılan heykəli sovet monumental heykəltəraşlıq ənənələrinin bariz nümunələrindən idi. O zamankı yeni hökumət universitetin qarşısında da bir heykəl və Bakının mərkəzi parklarının birində böyük abidə qurmağı planlaşdırırdı. Azərbaycanın ən tanınmış heykəltəraşlarından olan Ömər Eldarov heykəlin prototipini də hazırlamışdı. Lakin bu planları həyata keçirmək nəsib olmadı. 2019-cu ildə müxalifət Rəsulzadənin 135 illik yubi-

1 Tarix fənni üçün yeni dərslik yaratmağa ilk cəhdlər 1990-cı illərə gedib çıxır. İlkin variantlarda ADR siyasi fiqurlarına böyük diqqət ayrılırdı. 2000-ci illərdə yaradılan daha yeni hekayə isə kiçik düzəlişlərlə bu gün də istifadə olunur. Həm ADR, həm də Heydər Əliyevə ikinci versiyada böyük diqqət ayrılır. Amma portreti və "aforizm"ləri hər dərsliyə daxil edilən sonrakı prezident birmənalı olaraq üstünlük təşkil edir və əsas fiqura çevrilir.

leyini qeyd edərkən İsa Qəmbər bu məsələ ilə əlaqədar qəzəbini belə ifadə etmişdi: "Bu heykəl artıq 25 ildir həbsdədir. Hakimiyyət yüzlərlə heykəl quraşdırmağa yer tapa bilir, amma müstəqil Azərbaycanın qurucusuna yer tapılmır." (Azərbaycan müxalifəti 2019).

Hökumət qurumlarının bu "bacarıqsızlığı" Rəsulzadəyə heykəl qoyulmasının Heydər Əliyevin "millətin atası" statusuna arzuolunmaz rəqabət yarada biləcəyi ilə izah olunurdu. Ata Əliyevin hakimiyyəti dövründə ADR-in siyasi və rəmzi irsi tamamilə təftiş edildi. "Bütün Şərqdə ilk respublika" hekayəsi isə orientalist diskurs, eləcə də hakimiyyət qurumlarının ADR-varisliyi kimi miflər populyar olaraq qalır. Müstəqil dövlətçiliyin bütün rəmzləri də qorunub saxlanıb, lakin Ömər Eldarovun ödənişsiz işləmək razılığından savayı Rəsulzadəyə heykəlin qoyulmasına lazım olan maliyyə ayrılmayıb. (Kakim budet pamyatnik Rasulzade? 2013). Universitetin adı dəyişdirilmiş, "qurucu atalar" artıq "müstəqillik uğrunda savaşanlar" adlandırılmağa başlamışlar. Onlar çox işlər görmüş, lakin Heydər Əliyevdən fərqli olaraq heç bir uğur qazana bilməmişlər, beləliklə "Azərbaycanın ilk demokrativ dövləti iflasa uğramışdır [...]" (Əliyev 1998).

Hakimiyyətini "ulu öndərdən" miras alan və legitimliyini bunun əsasında quran oğul Əliyevin prezidentliyinin ilk dövründə "müstəqillik uğrunda savaşanların" statusu və birinci respublikanın xatırlanması yenidən ciddi şəkildə zəiflədi. Yeni prezidentin Republika günündə ilk çıxışı zamanı bayramın səbəbkarı olan şəxsə cəmi bir neçə giriş sözü həsr edilmişdi. Nitqin əsas hissəsi isə "əsl" qurucu ata, "milli lider" Heydər Əliyev haqqında idi. Atasından fərqli olaraq yeni prezident öz rəsmi çıxışlarında nadir hallarda ADR liderlərinin adını şəkirdi. Birinci respublika və onun liderlərinə yeni münasibət çox təvazökar təsir buraxan bir abidədə öz əksini tapmışdır. 2007-ci ildə qoyulmuş İqtislal bəyannaməsi stellası kütləvi tədbirlərin keçirilməsi üçün münasib olmayan bir yerdədir. ADR-in 100 illik yubileyi də təmtəraqsız keçirildi. Birinci respublika haqqında bir neçə şablon ifadə ilə kifayətlənib Heydər Əliyevin fəaliyyəti haqqında geniş danışmaq və hakim partiyanın davamlı daxili və xarici siyasət uğurlarını təsvir etmək bu nitqlər üçün artıq ənənə halını alıb. Əliyev hökuməti ADR siyasi figurlarını mədəni yaddaşdan sıxışdırıb çıxarmaq cəhdləri tam uğurlu olmadı. Lakin oğul Əliyevin nəzərində Heydər Əliyevin "daha böyük lider" və müstəqil dövlətçiliyin yaradıcısı imicinə rəqib olan fiqurlar və ilk növbədə Rəsulzadə yaddaş diskursunun küncünə sıxışdırılmışlar.

# 1918-Cİ İLİN MART GENOSİDİ VƏ 1990-CI İLİN QANLI YANVARI

Postsovet Azərbaycanında 1918-ci ildə baş vermis daha bir hadisəsi yeni dövrdə xatırlanmağa başladı. Bu hadisələrin yorumlanmasında nəinki hökumət və müxalifət arasında nadir rast gəlinən həmrəylik var, eləcə də ölkənin demək olar ki bütün əhalisi də eyni mövqedədir. 1918-ci il martın sonu aprelin əvvəlində Bakıda Müsavat partiyasının rəhbərlik etdiyi müsəlman icması ilə erməni millətçi partiyası Daşnaksutyunun rəhbərlik etdiyi erməni hərbi birşləmələri ittifaqda olan bolşeviklər arasında qarşıdurma baş vermişdi. Bu qarşıdurma şəhərin müsəlman əhalisinə qarşı poqrom və kütləvi qırğınla yekunlaşmışdı. Dəqiq məlumatlar olmasa da, ölənlərin sayınınn 8 000-i keçdiyi qəbul olunur (Swietochowski 1985: 135-139; Baberowski 2003: 132-141).

1990-cu ilin yanvarında Bakıda Azərbaycan Xalq Cəbhəsi ilə Sovet hakimiyyəti arasında hakimiyyət uğrunda gedən mübarizənin ermənilərin poqromu və hərbi əməliyyatlar ilə yekunlaşanda 1918-ci ilin martı xatırlanmağa başladı. Poqromların nəticəsində onlarla Bakı ermənisi öldürüldü, minlərlə insan mülkiyyətindən məhrum oldu və qaçqına çevrildi (Waal, 2003: 89-95). Yanvarın 19-dan 20-nə keçən gecə respublikada nəzarəti bərpa etmək üçün sovet hakimiyyəti hərbi əməliyyata başladı. Bunun nəticəsində 100-dən çox insan öldürüldü və yüzlərlə insan yaralandı. Ermənilərə qarşı poqrom milli yaddaşın çərçivəsindən kənarda qalsa da, hərbi əməliyyatlar qısa zaman ərzində “qara yanvar” və ya “qanlı yanvar” adını alaraq postsovet Azərbaycanının əsas yaddaş yerinə döndü. Hərbi müdaxilə nəticəsində öldürülən şəhər sakinlərinin yanvarın 22-də dəfni (poqromlarda öldürülən ermənilər onlar arasında deyildi) kütləvi yas və etiraz aksiyasına çevrildi (Azərinform 1990). Tezliklə *şəhid* adlandırılan bu qəhrəmanlar 1918-ci il mart qırğınının xeyli qurbanlarının basdırıldığı köhnə Çəmbərəkənd qəbirstanlığında dəfn olundu. Həmin qəbirstanlığın Dağüstü Park adlandırılan ərazisində isə 1930-cu illərin ortalarında Kirov parkı salındı. Elə 1990-cı ilin yanvarında *Şəhidlər xiyabanı* bərpa olunmağa başladı.

Bu hadisənin belə mühüm yer tumasının bir çox səbəbi var. Qara Yanvar (eləcə də 1918-ci ilin martı) azərbaycanlıların müstəqillik uğrunda qəhrəmancasına mübarizə aparması haqqında hekayə formalaşdırırdı. Həm yanvar, həm də mart şəhidlərinin vətənpərvərlik nümunəsi və müqəddəs qurban olaraq tökülən qanları Tomas Cefersonun təbirincə desək, azadlıq ağacını vaxtaşırı sulamaq üşün istifadə edilirdi.

“Həyatlarını vətənləri uğrunda qurban verən oğul və qızlarımızın qəhrəmanlığı əfsanəyə çevrilmişdir. Nəhayət onlar azadlığa gedən yolda ilk cığırı saldılar. Biz, dövlət müstəqilliyimizin bərpasını və azad həyatımızı ilk növdəbə və ən çox onlara borcluyuq” (Azərtac 2019).

Yanvar hadisələri həm də Heydər Əliyevin rəsmi tərcümeyi-halının mühüm komponentinə çevrilərək ona qəhrəmanlıq nuruna bürüdü. Gələcəyin “milli lideri” 1987-ci ildə işdən azad edildikdən sonra Moskvada təqaüdçü həyatı sürürdü. Yanvar hadisələri özünü ictimaiyyətə xatırlatmağa mühüm səbəb oldu. Hadisələrdən dərhal sonra Əliyev Mosk-

vada Azərbaycan nümayəndəliyinə gələrək “öz həyatını təhlükəyə ataraq” kameralar qarşısında hərbi müdaxiləni pisləyən bəyanat verdi. “Böyük liderin bu addımı xalqımıza enerji və güc verərək dəstək və rahatlıq mənbəyi oldu (yenə orada). Yanvar hadisələri Heydər Əliyevin hakimiyyətə qayıtmasına şərait yaratdı. “Böyük liderin” xeyli sonralar dərc olunan rəsmi tərcümeyi-halında yanvar hadisələrinə reaksiyası onun qəhrəman imicinin mühüm elementinə çevrildi. Bu hadisə həm də Əliyev ölkədə olmayanda Azərbaycanın xaos və zorakılıq bataqlığına yuvarlandığını vurğulayırdı.

Hər iki hadisə həm də müasir Dağlıq Qarabağ münaqişəsi və „tarixi düşmən” ilə qarşıdurma kontekstinə də uyğun gəlirdi. 1998-ci ildə Heydər Əliyev “Azərbaycanlıların soyqırımı” haqqında fərman imzaladı. Bu sənəddə 20-ci əsr boyu törədilmiş xeyli sayda “dəhşətli erməni cinayətləri” xırdalıqları ilə sadalanır. Fərmana əsasən 31 mart “Azərbaycanlıların soyqırımı günü” elan olunur. Beləliklə, müasir münaqişənin tarixiləşdirilməsi Azərbaycanın rəsmi siyasətinə çevrilir. Bu hadisəyə həsr olunmuş əsas xatirə kompleksi Azərbaycanın şimalında, 2007-ci ildə təsadüfən bir kütləvi mazarlığın tapıldığı Quba şəhərində yaradıldı. Bu məzarlıqdakı insan qalıqları 1918-ci il soyqırımının qurbanlarının olduğu müəyyən edilmişdi. Açılış mərasimindəki çıxışında prezident bunları bildirdi: “Cəmi beş ay ərzində bizim 50 000-dən artıq vətəndaşımız erməni faşizminin qurbanı oldu” (Əliyev, 2013). Beləliklə, 1918-ci il hadisələrinin xatırlanması ermənilərin kollektiv düşmən obrazı və azərbaycanlıların qurban kimi tanıdılması İkinci Dünya Müharibəsi və Holokost kimi hadisələrlə bağlandı. Şəhidlər xiyabanı isə çoxfunksiyalı xatirə kompleksinə çevrilərək Dağlıq Qarabağ münaqişəsinin də xatirə yeri oldu. 1992-94-cü illərdə müharibədə həlak olan əsgərlər buradakı qəbirstanlıqda dəfn olunur və onlara Milli Qəhrəman adı verilirdi.

# UZUN MÜDDƏTLİ MÜNAQİŞƏ YADDAŞLARDA: İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏN ƏVVƏL VƏ SONRA

Yaddaş siyasətində Dağlıq Qarabağ hadisələrinə daim böyük əhəmiyyət verilib. Davam edən münaqişənin uzun illər xatırlanması hər il daha travmatik və müəyyən mənada təntənəli tədbirlərlə qeyd olunur (Akhundov 2017). Şəhidlərin sıraları da durmadan genişlənirdi. 2016-cı il aprel və 2020-ci il iyul döyüşləri onlarla hərbçinin ölümü ilə nəticələndi. Amma bu gərginşəlmə olmadıqda belə təmas xəttində təkcə hərbçilər deyil, müki şəxslər də həyatlarını itirirdilər. Münaqişənin uzun müddət davam etməsi və intensivliyi ucbatından bu hadisələr bütün ölkə boyu bütün nəsillərin canlı yaddaşına hopur. (Akhundov 2020).

Xatırlanan hadisələr arasında ən mühümlərindən biri 1992-ci ildə Xocalı adlı kiçik şəhərdə baş verən, qocalar, qadınlar və uşaqlar da daxil olmaqla yüzlərlə sakinin güllələndiyi, əsir götürüldüyü və qaçqına çevrildiyi kütləvi qırğın idi (Waal 169-172). Heydər Əliyevin 1998-ci ildə imzaladığı fərmandan sonra bu hadisə Azərbaycanda rəsmi olaraq soyqırım adlandırılmağa başladı. Rəsmi qurumlar Xocalı faciəsinin xatırlanması tədbirlərinə ciddi resurslar sərf edirdilər və bu bir faktdır ki, Azərbaycan cəmiyyətinin bütün təbəqələri tərəfindən bu səylər tamamilə anlaşılır və dəstəklənirdi.

Beləliklə, qurban diskursu çərçivəsində bu hadisələr ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilmiş genosid əməlləridir. Onların hər birin üçün ayrıca xatirə günü var: 1918-ci il üçün 31 mart və Xocalı genosidi üçün 26 fevral. Bu və bir sıra digər tədbirlər də bütün 20-ci əsr boyu azərbaycanlılara qarşı törədilmiş genosid hesab edilir.

Ötən illər ərzində bu mövzuda bir neçə teatr əsəri yazılmış və səhnələşdirilmişdir, məsələn *Xocalı harayı, Badam ağacı ççiçəkləyəndə, Xocalı – bu olub,* və digərləri. Bundan başqa bir sıra sənədli və bədii filmlər də istehsal olunmuşdur, onlardan *Biz qayıdacağıq, Nabat, Zülmətdən qaçarkən* adlı filmləri göstərmək olar. Bir neçə azərbaycanlı və xarici bəstəkar Xocalöza həsr olunmuş simfoniyalar yazıblar (Məmməd Quliyev, Tofiq Bakıxanov, Azər Dadaşov, Pyer Tilua, Aleksandr Çaykovski və digərləri). Həm azərbaycanlı, həm də xarici yazıçılar bu mövzuya hekayə və novellalar həsr ediblər: Meyxoş Abdullahnın *Əsir qadın,* Arye və Əmir Qutun *Ağrı,* Yefim Abramovun *Qara qar çiçəyi* və s. Azərbaycanfilmin ilk cizgi filmləriin müəllifi olan Nazim Məmmədov öz rəsmlərində bu hadisəni təsvir edib. 1993-ci ildə heykəltəraşlar Aslan, Mahmud və Teymur Rüstəmovlar tərəfindən Bakıda qoyulmuş *Ana fəryadı* adlı kiçik bir heykəl 2008-ci ildə yenidən qurularaq doqquz metr hündürlüyündə abidəyə çevrildi. Kütləvi xatirə mərasimi bu abidənin önündə sona çatırdı. Artıq bir neçə ildir ki, Azərbaycan rəsmi qurumlarının təşkil etdiyi kütləvi marşlar bu abidə yanında əklil qoymə mərasimi ilə yekunlaşır. Kütləvi xatırlama mədəniyyətinin müxtəlif formalarının yayılmasına illərlə göstərilən səylər ölkənin hər bir vətəndaşının bu və ya digər formada Xocalının xatırlanmasında iştirakını təmin edib.

2020-ci il sentyabrın 27-də "44 günlük müharibə" kimi yadda qalan İkinci Qarabağ müharibəsi başladı. Qarşıdurma nəticəsində keçmiş Dağlıq Qarabağ muxtar vilayəti ətrafıda yerləşən demək olar ki bütün rayonlar, eləcə də keçmiş vilayət ərazisinin bir hissəsi Azərbaycanın nəzarətinə keçdi. Həmin ilin noyabrında Azərbaycan ordusu və şəxsən onun baş komandanı olan prezident qələbə elan etdilər.

Müharibənin nəticələri yaddaş mədəniyyətində də radikal dəyişikliyə səbəb oldu və travmanın yerinə qalibiyyət keçdi. Müharibənin xatırlanması istiqamətində işlər hərbi əməliyyatlar hələ sona çatmamış başladı. 2020-ci il dekabrın əvvəlində, müharibədən bir qədər sonra prezident fərmanı ilə 27 sentyabrı müharbədə həlak olmuş təxminən üç minədək şəxsin xatirə günü elan edildi. 8 noyabr isə Qələbə günü elan edildi və qeyri-iş günü kimi təqvimə daxil edildi. Prezident bütün ölkədə çoxsaylı abidələrin quraşdırılmasına söz verdi. Onlardan ən mühümü Bakıda tikiliəcək möhtəşəm bir abidənin olmalı idi.

Açıq havada muzeyin qurulmasına yubanmadan başlanıldı. 2021-ci ilin aprelində paytaxtda Hərbi Qənimətlər Parkının açılışı oldu. Ailələrin uşaqlarla birlikdə buraya gəlməsi aylar sonda da ölkədə ən sevilən asudə vaxt tədbirlərindən biri idi. Bu muzeydə qələbə birmənalı şəkildə təqdim olunur. Ziyarətçilərin içindən keçdiyi kamuflyaj örtüklü tuneldə ən mühüm görüntü müharibədə ölən erməni əsgərlərinin şlemləri idi. Yerli və beynəlxalq qurumlardan daxil olan bir sıra şikayətlərdən sonra bu şlemlər 2021-ci ilin sonlarında ekspozisiyadan çıxarıldı. Sərginin ən mühüm eksponatlarına Azərbaycan ordusundan qorxmuş düşmən obrazını yaradan manekenlər da daxildir. Onlar tezliklə öləcəyini gözləyən insanları xatırladırlar. Bu muzeydə etnik ermənilər haqqında mövcud olan stereotiplərin canlandırılması üçün bütün mümkün vasitələrdən istifadə edilmişdi.

Qələbə sənət adamlarına da yeni və çox güclü əlavə stimul verdi. Müharibədən sonrakı bir il ərzində xeyli şerlər qoşulmuş, mahnılar oxunmuş və çoxlu video kliplər çəkilmişdir. Sanki bütün bəstəkarlar, yazarlar və sənətkarlar bu qələbənin anılmasına tövhə verməyə özlərini borclu biliblər. Qələbənin birinci ildönümü münasibətilə ali baş komandanın müharibədəki roluna dair sənədli film də çəkildi. Bunun yalnış bir başlanğıc olduğunu və bu cür əsərlərin ilbəil sürətlə artacağını təxmin etmək heç də çətin deyil.

Qələbənin anılmasında həm diskurs, həm ritual, həm də estetika sovet dövrünün 9 may qələbə bayramlarını xatırladır. Müharibənin bitməsindən bir ay sonra keçirilən qələbə paradı, eləcə də müharibənin başlamasının birinci ildönümündə Bakıda keçirilən paradda Ölməz Alayın hərbiləşdirilmiş versiyasının təntənəli keçidi bu cür təkrarın ən gözəçarpan elementləridir. Bayramın adı belə sovet dönəmindəki ad ilə eynidir.

İkinci Qarabağ müharibəsindən əvvəl yaradılmış və münaqişəyə həsr olunmuş əsərlərin öz əhəmiyyətini itirməyəcəyini anlamaq zəruridir. Yaddaş mədəniyyətində əsas hədəfin travmadan qələbəyə köklənməsinə baxmayaraq, qurban obrazı və genosid diskursu da qüvvəsində qalacaq və qarşı tərəfin qeyri-insani obrazda təqdim etmək üçün vacib rol oynayacaq. İkinci müharibənin bitməsi münaqişənin sovuşması anlamına gəlmir.

# BÖYÜK LİDERİN ÜZƏ ÇIXMASI

Heydər Əliyev Xocalı hadisəsindən öz opponentlərini marjinalaşdırmaq üçün də istifadə edirdi. O öz xələflərini mülki əhalinin qırğınına imkan verməyinə görə sərt tənqid edirdi. Əliyev xələflərinin təkcə hərbi məğlubiyyətini deyil, bütün sahələrdəki uğursuzluqlarını, o cümlədən müstəqilliyin kövrək ilk illərində iqtisadiyyatın və dövlət institutlarının çöküşü, sosial sahədə və təhsildə geriləməni də tənqid edərək özünün siyasi fiqur kimi ideal və anadangəlmə lider obrazını yaratmaq üçün yaralanırdı. Rəsmi diskursa görə bu cür uğursuzluqlar onun hakimiyyəti dövründə baş verə bilməzdi.

Əliyevin öz şəxsiyyəti ətrafında qurduğu avtoritar hakimiyyətə bir nəfər, yəni təkcə lider nəzarət edirdi və ona tam tabe olan hökumət loyal insanlardan təşkil olunurdu. Əliyev kultu hələ onun sağlığında yaradılmışdı. Bu lider kultunun bir sıra elementləri ölkəni təmsil edən vahid lider ətrafında qurulan sovet ənənəsinə əsaslanırdı. Lakin burada həm də Atatürk kultuna bənzərliklər vardı. Türkiyə cümhuriyyətinin yaradıcısının millətin atası adlandırılması və avropalılığını vurğalanmasını xüsusilə qeyd etmək olar. Atatürk kimi Heydər Əliyevin də ölkədə yayılan ən məşhur plakatlarında onun smokinqli şəkillərindən istifadə edilirdi. Bəzən Azərbaycanın “milli liderinə” “dövlətin atası” titulu da şamil edilirdi (Azərtac, 2003; Huseynova, 2005: 178).

Vəfatından sonra Əliyev artıq “ümumilli” və “böyük” lider adlandırılmağa başlayır. Geniş yayılmış loyalist diskursda Azərbaycanın müstəqilliyini qoruyub saxlaması və vətəndaş müharibəsinə yuvarlanmaması Heydər Əliyevin “dahiliyi”, “siyasi istedadı [...], müdrikliyi və uzaqgörənliyi və strateji düşüncəsi” sayəsində mümkün olduğu hesab edilir.

Prezidentdən təkçə vəzifəni deyil, rejimin xüsusiyyələrini də miras alan oğlunun nə resursları, nə də xarizması ona anadangəlmə lider roluna iddia etməyə imkan vermirdi. İlham Əliyevin hakimiyyətini legitimləşdirən atasının kultu idi, belə ki o, “21-ci əsrdə Əliyein layiqli davamçısı” hesab olunurdu.  (Andriyanov and Miralamov, 2007: 10). Buna görə də oğul Əliyevin prezidentliyi dövründə bu kultun yaradılması və qorunmasına xeyli resurslar sərf olunmuşdu. İctimai məkanlarda bu kultun ən gözə görünən elementi çoxsaylı heykəllərdir. Heykəllərin janrında müxtəliflik axtarmaq əbəsdir, belə ki Əliyev bir qayda olaraq ayaq üstə, bəzən əlini qaldırmış vəziyyətdə və aşağı yönəlmiş nəzərlərlə təsvir olunurdu. Heydər Əliyevin bütün qranit və mərmər heykəlləri adətən onun adını daşıyan parklarda ucalır. Digər tərəfdən isə Zaha Hadid tərəfindən layihələndirilən və 2012-ci ildə Bakıda açılışı olan Heydər Əliyev mərkəzi paytaxtın ən maraqlı müasir memarlıq abidəsidir.

Kultun yaradılması və dəstəklənməsində xeyli sayda vəzifəli şəxslər, biznesmenlər, mədəniyyət və təhsil sahəsinin tanınmış nümayəndələri, Elmlər Akademiyasının institutlarının və universitetlərin əməkdaşları fəal iştiraka cəlb edilmişdilər. Bu cür həvəs və aşağıların fəal təşəbbüs göstərməsi təəccüblü deyil. Yeni heykəl və büstlərin qoyulması, şəkillərin müxtəlifliyi, yeni kütləvi mərasimlərin tətbiq edilməsi və “böyük lider” və “dahi şəxsiyyət” haqqında müzakirələrin inkişafına tövhə vermək hakim rejimə loyallığın ifadə olunması üçün gözlənilən davranışlardır.

# KEÇMİŞİN GƏLƏCƏK PERSPEKTİVLƏRİ

Hər bir ölkədə yaddaş siyasətinin formalaşdırılmasında hakimiyyətin mühüm rolu olur. Buna baxmayaraq, demokratik ölkələrdə geniş spektrli müstəqil qrupların geniş təsir imkanları olur. Azərbaycanın yaddaş siyasətinin əsas xüsusiyyəti isə odur ki, siyasi rejim yaddaş siyasətinə mümkün olan ən geniş nəzarəti edir. Dövlət rəsmiləri öz məqsədlərindən çıxış edərək və bir qayda olaraq öz legitimliklərini artırmaq üçün respublikanın bütün ictimai məkanlarına nəzarət edirlər.

1993-cü ildə Əliyev rejiminin qurulmasından bəri siyasi müxalifətin təzyiq altında saxlanması prosesi davamlı olub və hər ötən il daha da güclənib. Müvafiq olaraq yaddaş siyasəti və tarixə dair siyasətə dövlət nəzarəti də davamlı olaraq artırılıb.

Bir tərəfdən, rəsmi qurumlar tərəfindən bu cür nəzarət sovet dövründən başlayaraq kifayət qədər adi bir davranış olub. Digər tərəfdən isə nəzarətin gücləndirilməsinə Dağlıq Qarabağ münaqişəsinin həlli üçün vahid və hərməy mövqeyə ehtiyacla bəraət qazandırılıb. Həmrəylik diskursu “mənfur tarixi düşmən” ilə üz-üzə qalmış Azərbaycanlıların birləşmə zərurətindən qaynaqlanır. Bu məntiqə dayanaraq müxalifətin və vətandaş cəmiyyətinin sıxışdırılması uğurla həyata keçirilmişdir. Beləliklə, hakimiyyətə yönəlmiş istənilən tənqid “ermənipərəst” və ya “antiazərbaycan” mövqeyi kimi damğalanır.

Dağlıq Qarabağ münaqişəsində təkçə hərbi heyət deyil, həm də tarixçilər aktiv iştirak edərək bu və ya digər əraziyə müstəsna hüquqlarının olmasını avtoxton xalq barədə miflərlə əlsaslandırırlar. Dövlət qurumları demək olar ki bütün universitetləri və tədqiqat institutlarını nəzarət altında saxlayaraq fərqli fikirlərin yayılmasına imkan vermir. Lakin bu nəzarət olmasa belə əksər tarixçilər və sosial elmlərin araşdırmaçıları nüfuzlu vətənpərvər diskursun hədlərini aşmaq iqtidarında deyillər və Azərbaycanın tarixi düşməninə qarşı çıxmaqla könüllü surətdə öz həmrəyliklərini nümayiş etdirməyə meyllidirlər.

Heydər Əliyev siyasi meydana daxil olduqdan sonra tarixə və yaddaşa nəzarət gücləndi. Əliyevin respublikanın DTK rəhbəri və Azərbaycan Kommunist Partiyasının birinci katibi olması (1967-1982) faktları gələcək müstəqillik üçün zəmin yaratma faəliyyəti kimi təqdim olunur və o 1993-cü ildə hakimiyyətə gəlməsindən sonraqurulmağa başlayan “böyük lider” kultunu möhkəmləndirir. Bir çox heykəllər və muzeylər bu mifin ictimai məkanda təsdiq olunması niyyətinə xidmət edir. Heydər Əliyev kultu yalnız irsi və avtoritar rejim şəraitində, alternativ yanaşmaların ictimai məkandan təcrid olunduğu vəziyyətdə çiçəklənə bilər. Odur ki, hakim qurumların keçmişə nəzarətə bu qədər ciddi yanaşması təəccüblü deyil.

# ƏDƏBİYYAT


Akhundov (2017), Rise of Militaristic Sentiment and Patriotic Discourses in Azerbaijan: An Analytic Review, https://caucasusedition.net/rise-militaristic-sentiment-patriotic-discourses-azerbaijan-analytic-review/

Akhundov (2020), Conflicts and Militarization of Education: Totalitarian Institutions in Secondary Schools and the System of Extracurricular Education in Azerbaijan, https://caucasusedition.net/conflicts-and-militarization-of-education-totalitarian-institutions-in-secondary-schools-and-in-the-system-of-extracurricular-education-in-azerbaijan-part-1/

Азербайджанская оппозиция отметила 135-летие Мамед Эмина Расулзаде (2019), https://www.meydan.tv/ru/article/azerbajdzhanskaya-oppoziciya-otmetila-135-letie-mamed-emina-rasulzade/

Азеринформ (1990), Черные флаги над городом // Газета «Вышка», 25 января, с. 1.

Азертадж (2003), Отец Азербайджана - Гейдар Алиев, https://azertag.az/ru/xeber/OTEC_AZERBAIDZHANA___GEIDAR_ALIEV-615333

Азертадж (2019), 20 января Шехидлер хиябаны и мемориальные комплексы шахидов посетили сотни тысяч человек, https://azertag.az/ru/xeber/20_YAnvarya_SHehidlyar_hiyabany_i_memorialnye_kompleksy_shehidov_posetili_sotni_tysyach_chelovek-1235806

Алиев Г. (1998), Речь Президента Азербайджанской Республики Гейдара Алиева на церемонии, посвященной 80-летнему юбилею Азербайджанской Республики, http://axc.preslib.az/ru/page/FKz7MLhAi0

Aliyev I. (2013), Ilham Aliyev attended the opening of the Guba genocide memorial established with the support of the Heydar Aliyev Foundation, https://en.president.az/articles/9346

Андриянов В., Мираламов Г. (2005), Гейдар Алиев, Москва: Молодая Гвардия.

Assmann A. (2006), Der lange Schatten der Vergangenheit: Erinnerungskultur und Geschichtspolitik, München: C. H. Beck.

Assman A. (2009), “Plunging into Nothingness”: The Politics of Cultural Memory, in: Lambert L. & Ochsner A., eds., (2009), Moment to Monument: The Making and Unmaking of Cultural Significance, Bielefeld: Verlag, pp. 35-50.

Андриянов В., Мираламов Г. (2007), Ильхам Алиев Алиев, Москва: Молодая Гвардия.

Baberowski J. (2003), Der Feind ist überall. Stalinismus im Kaukasus, München: Deutsche Verlags-Anstalt.

Гусейнова И. (2005), Гейдар Алиев - от политического руководителя к общенациональному лидеру, Баку: Тахсил.

Каким будет памятник Расулзаде? (2013), https://ann.az/ru/kakim-budet-pamyatnik-rasulzade/

Меркуров Д. С. (1953), Записки скульптора, Москва: Издательство Академии художеств СССР.

Michalski S. (1998), Public Monuments: Art in Political Bondage 1870-1997, London: Reaction Books Ltd.

Ottaway M. (2003), Democracy Challenged: The Rise of Semi-Authoritarianism, Washington D.C.: Carnegie Endowment International Peace.

Rumyantsev (2017), Behind Azerbaijan's facades. In Azerbaijan, power is strictly a family business, https://www.opendemocracy.net/en/odr/behind-azerbaijan-s-facades/

Swietochowski T. (1985), Russian Azerbaijan, 1905-1920. The Shaping of National Identity in a Muslim Community, Cambridge: Cambridge University Press.

The opposition celebrated the Republic Day (2017), http://mail.contact.az/ext/news/2017/5/free/Social/en/54111.htm

Waal de T. (2003), Black Garden: Armenia and Azerbaijan through Peace and War, New York & London: New York University Press.